*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 2*
*Səhifə: 209-214* *ISSN: 2663-4406*

*Milli özünüdərk və istiqlal ədəbiyyatı*

**UOT:** 821.512.162(091)
Tənzilə Rüstəmxanlı *

# ŞƏXSİYYƏTƏ PƏRƏSTİŞ DÖVRÜNÜN SONU VƏ BƏXTİYAR VAHABZADƏ YARADICILIĞI

***Xülasə***

Azərbaycanın milli istiqlal savaşı, xalqın müstəqil dövlətə nail olmaq uğrunda mücadiləsi heç vaxt yarımplanda, yəni imperiyaların coğrafi bölgüdən daha çox ideya, mənəviyyat və milli mənlik şüurunu parçalamağı nəzərdə tutan siyasi-ideoloji yarımmüstəvilərində – Şimal və Cənub adlanan coğrafi məkanlarda fərqli şəkildə və məzmunda təzahür etməmişdir. Qədim ənənələrini yaşadan Azərbaycan xalqı ən mürəkkəb ictimai-siyasi, hüquqi-ideoloji basqı şəraitində belə öz dilini, dinini, adətini, bütövlükdə mənəvi dəyərlər sistemini qorumaqla yanaşı, həm də bu dəyərlər sistemi üzərində bərqərar olmuş milli-azadlıq ideyasını, müstəqillik, dövlətçilik idealını ruhunda və qanında yaşadıb, onun uğrunda hər dəfə ölməyə hazır olduğunu sübut etmişdir.

İstiqlal poeziyamızın görkəmli nümayəndələrindən biri, zəngin və çoxcəhətli ədəbi irsə malik, müasir ədəbiyyatımızda əsərlərinin milli mündəricəsi, sənətkarlıq xüsusiyyəti ilə seçilən, görkəmli söz ustadı Bəxtiyar Vahabzadədir. Bəxtiyar Vahabzadənin publisistikası Azərbaycan ədəbi-ictimai fikrinin formalaşmasında, inkişafında önəmli rol oynayıb və öz təsir gücünü bu gün də qoruyub saxlamaqdadır.

**Açar sözlər:** müstəqillik dövrü, poeziya, şəxsiyyətə pərəstiş, istiqlal mücadiləsi, vətənpərvərlik, milli ruh, milli ideologiya

## THE END OF THE ERA OF THE CULT OF PERSONALITY AND CREATIVITY OF BAKHTIYAR VAHABZADEH

***Summary***

In Azerbaijan's National War of Independence, the struggle of the people to reach an independent state never appeared in different form – in the political and ideological geographical regions of the north and south, aiming the idea, the moral and the national consciousness brokenness more than the geographical division of the empire. In addition to ancient traditions, the people of Azerbaijan have preserved their own language, religion, tradition and moral values in the most complex socio-political, legal and ideological oppression and the idea of national freedom, independence and statehood in mind and blood and proved to be ready to die for it every time.

One of the most prominent representatives of our poetry of independence is Bakhtiyar Vahabzadeh, a prominent vocabularist with a rich and varied literary heritage, distinguished by the national mastery of his works in modern literature. The publicisty of Bakhtiyar Vahabzade plays an important role in the emergence and development of literary public opinion in Azerbaijan and retains its influence to this day.

**Key words:** independence, poetry, cult of personality, struggle for independence, patriotism, national spirit, national ideology

## КОНЕЦ ЭТАПА «КУЛЬТА ЛИЧНОСТИ» И ТВОРЧЕСТВО БАХТИЯРА ВАХАБЗАДЕ

***Резюме***

Война за независимость Азербайджана, борьба народа за достижение независимости государства, невзирая на стремление империй, помимо географического разделения, более стремившихся к идейному, нрав-

* Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Filologiya üzrə fəlsəfə doktoru.

ственному разделению в политико-идеологическом аспекте и ущемлению национального достоинства в сознании – на разделённых географических пространствах, именуемых Северным и Южным Азербайджаном, никогда не воплощались в различных, полуплановых аспектах. Азербайджанский народ, оберегая древние традиции даже в условиях сильного социально-политического и правового идеологического давления, наряду с сохранением своего языка, религии, обычаев и системы нравственных ценностей в целом, даже сохранил в крови и духе основанную на этой системе национально-освободительную идею, страстное стремление к независимости и самостоятельности, подтверждая всегда готовность умереть ради этого.

Бахтияр Вахабзаде является одним из выдающихся представителей нашей поэзии независимости, имеющим богатое и многогранное художественное наследие, выделяющимся в нашей современной литературе произведениями с национальным содержанием и особенностями творчества бесценным мастером слова.

Публицистика Бахтияра Вахабзаде сыграла важную роль в формировании и развитии литературно-общественной мысли Азербайджана, и сегодня не теряет своей влиятельной силы.

**Ключевые слова:** период независимости, поэзия, культ личности, борьба за независимость, патриотизм, национальный дух, национальная идеология

**Giriş.** Sovet dövrü Azərbaycan ədəbiyyatı mürəkkəb və faciəvi bir yol keçməsinə, öz sıralarından yüzlərlə istedadlı qələm sahiblərini qurban verməsinə baxmayaraq, bütövlükdə sosialist realizmi prinsipləri çərçivəsində məhdudlaşıb qalmamış, yeri gəldikcə, "formaca milli, məzmunca sosialist" ədəbiyyatının sinfilik ideologiyasının arxa qatında olsa da, insan və zaman, insanın daxili aləmi, milli mənlik şüuru, fərdi dünyabaxış və s. kimi problemləri diqqətdən kənarda qoymamış, necə deyərlər, sosial-ictimai problemlərin poeziyada, nəsrdə bədii həllini verməyə çalışmışdır.

Sovet yazıçısının yaradıcılıq metodu olan sosialist realizmi və sovet insanının arzu və xəyallarını tərənnüm edən sosialist romantizmi 70 illik bir dövr ərzində ədəbiyyatın parametrlərini müəyyən edən, hakimiyyət və sənət münasibətlərini tənzimləyən yeganə ədəbi dəyər ölçüsü olsa da, milli məfkurə bəzən parlaq, bəzən isə çox zəif olmaqla, onunla paralel şəkildə öz mövcudluğunu qoruyub saxlaya bilmişdir. Əks halda, 1950-ci illərin birinci yarısında Sovetlər Birliyində baş verən siyasi dəyişikliklərdən sonra birdən-birə elə güclü bir demokratik ədəbi dalğanın gəlməsi, cəmiyyət daxilindəki ictimai ziddiyyətlərin çox sürətli şəkildə bədii mətnə çevrilməsi, ictimai-siyasi strukturdan narazılıq edən yeni qəhrəman tiplərinin yaranması, hadisələrin sinfi müstəvidən milli zəminə keçməsi, tarixi faktların yeni rakursdan sərf-nəzər edilməsi və s. mümkün ola bilməzdi. Bu, bir daha onu göstərirdi ki, ədəbiyyatımız ən ağır dövrlərdə (30-50-ci illərin əvvəllərinə qədər) belə özünüqoruma instinktini itirməməklə yanaşı, gizli şəkildə olsa da, milli ruhunu qoruyub saxlamağa, onu nəsildən-nəslə ötürməyə qadir olmuşdur. Qeyd etdiyimiz dövrdə Səməd Vurğunun azərbaycançılıq və vətənpərvərlik ruhunu ifadə edən bir çox şeirlərində, Süleyman Rüstəmin Cənub poeziyasında, Rəsul Rzanın fəlsəfi lirikasında, Məmməd Rahimin klassik janrda yazdığı bədii nümunələrində və s. sosialist realizmi çərçivəsində milli duyğuların, milli ideal və arzuların tərənnümünə də yer verildiyinin şahidi oluruq. Stalinin ölümündən sonra şəxsiyyətə pərəstişin tənqidi adı ilə Sovetlər İttifaqında başlanan yeniləşmə, siyasi sistemin boşalması, ideologiyanın hüdudlarının nisbətən genişlənməsi uzun müddət sətiraltı deyilən fikir və mülahizələrin üzə çıxmasına, insan amilinin cəmiyyətdəki yerinin müəyyənləşməsinə, milli özünüdərkin və özünəqayıdışın sürətlənməsinə, milli məfkurənin bədii fakta çevrilməsinə imkan verdi. Bundan sonrakı dövrdə həmin proses yüksələn xətt üzrə getməklə həm yaşlı nəslin nümayəndələrini, həm də yeni ədəbi qüvvələri öz sıralarına cəlb edərək milliləşmənin dərinləşməsinə, milli-mənəvi özünüdərkin və istiqlalçılıq ideyalarının güclənməsinə yol aça, "dinc yanaşı olsa da, bir müddət ədəbiyyatda sosialist təfəkkürü ilə milli düşüncə əsasında yaranan ədəbiyyatın yanaşı addımlamasına şərait yarada bilmişdir" [1]**.**

Yuxarıda qeyd etdiyimiz kimi, "şəxsiyyətə pərəstiş"in aradan qaldırılması və cəmiyyətdə baş verən "yumşalma" nəticəsində hər iki qüvvənin – həm yaşlı nəslin, həm də ədəbiyyat meydanına yeni atılan qüvvələrin yaradıcılığında ciddi təbəddülat baş verdi. Məsələn, o zaman artıq Azərbaycan poeziyasında xüsusi yeri olan Rəsul Rza Mikayıl Müşfiqə həsr etdiyi "Qızıl gül olmayaydı" poeması, "Rənglər" silsiləsi ilə yad əllərlə milli-mənəvi dəyərlərimizə divan tutulmasından, bir

xalqın mənəviyyat daşıyıcılarının qətlə yetirilməsindən söhbət açaraq milli özünüdərkə qayıdışın, istiqlalçılıq ənənəsinin bərpasının, milli haqların dilə gətirilməsinin mümkünlüyünü bəyan edirdi. Poemada təkcə M.Müşfiqdən danışılmır, taleləri Markaryanlar, Topuridzelər tərəfindən həll olunan və cinayətləri bilinmədən gedər-gəlməzə göndərilən Hüseyn Cavid, Əhməd Cavad, Cuvarlı kimi ziyalılarımız xatırlanır, onların aradan götürülməsi bir millətin faciəsi kimi təqdim edilir. Bununla yanaşı, həmin dövrdə artıq qələmlərini ədəbiyyatda sınamış Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Məmməd Araz, Sabir Rüstəmxanlı və digərlərinin yaradıcılığında milli məfkurə, milli düşüncə, xalqın taleyi üçün narahatlıq, ictimai problemləri kəskinləşdirən sosial ədalətsizliyin yaratdığı ümidsizlik sovet pafosunu, ritorikasını, nikbinlik və təmtərağını sıxışdırmağa başlamış, bədii təzadların sinfi müstəvi üzərindən insan amilinin ideologiya ilə qarşı-qarşıya gəldiyi təzadlar üzərində qurulmasına gətirib çıxarmışdı. Bəxtiyar Vahabzadə memuarlarında istiqlalçılıq məfkurəsinin möhkəmlənməsinin səbəblərini aşağıdakı kimi izah edirdi: "...İkinci Dünya müharibəsindən sonra müstəmləkə xalqlarının milli azadlıq hərəkatı, onların azadlıq əldə etməsi məndə inam yaratdı. Xarici ölkələrə, xüsusən Afrikaya səfərim isə bu inamı artırdı. Bütün bunlar "Ələddinin çırağı", "Açıq şəhər", "İstiqlal", "Neo" və Əlcəzair xalqının milli azadlıq hərakatını tərənnüm edən "Yollar-oğullar" poemasının yaranmasına səbəb oldu. Beləliklə, əzilən xalqın mübarizəsi və qələbəsi mənim yaradıcılıq bioqrafiyama təsir edən, məni bir şair kimi silkələyən ictimai hadisəni, əsas amillərdən biri və bəlkə də birincisi sayıram".

1943-cü ildə "Ana və şəkil" adlı ilk şeiri çap olunan Bəxtiyar Vahabzadə yaradıcılığını XX əsrin milli hadisəsinə çevirən başlıca amil onun mübariz siyasi ruhu, bütün mövzularının milli zəmində təqdimatı, xalqının dünya xalqları içərisində yaşamaq və var olmaq hayqırtısı, ana dili, milli müstəqillik və suverenlik kimi insani haqlarını bəyan etməsi olmuşdur. Vaqif Yusifli çox doğru olaraq yazır: "Azərbaycan xalqının mənəvi dünyasını, mübarizələr tarixini, intellektual aləmini, keçmişindən bu gününə uzanan yolu-bu yolun şərəfli-şanlı səhifələrini, həmçinin faciəli, dramatik mənzərəsini biz digər böyük sənətkarlarımızın yaradıcılığı ilə bir sırada Bəxtiyar poeziyasında da izləyə bilərik" [2].

Amma Bəxtiyar Vahabzadə təkcə dünənin, keçmişin poetik salnaməsini yaratmamış, həm də irəlidə qeyd etdiyimiz kimi, zamanının ziddiyyətli, qara və ağ rənglərdən ibarət daxili qatlarını fəlsəfi lirikanın köməyi ilə bədii mətnə çevirmiş, xalqı öz arzu və idealları, bəşəri haqları uğrunda mübarizəyə səsləyən döyüşkən və mübariz poeziyanın milli əsaslarını möhkəmləndirmişdir.

O, 1958-ci ildə yazdığı "Gülüstan" poeması ilə iki yerə parçalanmış Azərbaycan xalqının tarixi faciəsini ədəbiyyata gətirmiş, rus və fars imperiyasının pəncəsi altında inləyən Azərbaycan xalqının azadlıq və istiqlal uğrundakı ədalətli mücadiləsinin poeziyamızın əbədi mövzusu olduğunu bir daha təsdiqləmişdir. Hələ bundan yeddi il əvvəl yazdığı "Cənublu bacıma" (1951) adlı şeiri ilə şair Azərbaycanın Güney dərdini özünəməxsus şəkildə təcəssüm etdirməklə bərabər, həm də bununla şimallı insanların da ağır həyatını, güzəranını, "xeyirxah imperiya"nın olmadığını diqqətə çatdırmışdır.

*Ay kimi qəlbində qıvrılan bacım,*
*Dərdli nəğmələrin tanışdır mənə.*
*Dumanlı Təbrizin dumanlarından*
*Şehmi çilənmişdir kirpiklərinə? [3, s.84]*

"Gülüstan" poema – ittihamdır; bir xalqdan xəbərsiz iki imperiyanın onun taleyini həll etməsinə, qardaşı qardaşdan ayırmasına, ana ilə övladları arasında sərhəd dirəkləri basdırılmasına qarşı üsyandır. Şair əsərdə hətta "könüldən-könülə yollar görünür" ifadəsinə istehzasını da gizlətmir. Təbii ki, bu əsərin yazılmasına səbəb olan faktlar içərisində XX əsr Azərbaycan poeziyasının nəhənglərindən olan Məhəmmədhüseyn Şəhriyarın 1952-ci ildə yazıb tamamladığı və 1954-cü ildə Təbrizdə ilk nəşrinə nail olduğu "Heydərbabaya salam" poemasının güclü təsirini xüsusi qeyd

etməliyik. Bunu poemanın sonluğunda "Heydərbabaya salam"dan gətirilmiş sətirlər də təsdiq edir, amma ustad Şəhriyar nostoljisindən və onun bədbin və küskün romantikasından fərqli olaraq, Bəxtiyar Vahabzadə məsələni kəskin, birbaşa qoyur, tarixi fakt üzərindən öz zamanəsinə hökm oxuyur, milli yanğı və vətəndaş qeyrəti ilə üsyan edir. Vaxtilə Çingiz Aytmatovun dediyi kimi, "...Bəxtiyar tarixi bu günün gözüylə mühakimə edir, bizi inandırır ki, bunun bilavasitə ona və müasirlərinə dəxli var. O, bizi inandırır ki, indiki adamların, indiki zamanın taleyi keçmişdən asılıdır":

*Ayrılır ikiyə bir el, bir Vətən.*
*Axıdıb gözündən yaş gilə-gilə,*
*Bu dəhşətli hala nə deyir Vətən?*
*Bir deyən olmadı, durun ağalar!*
*Axı bu ölkənin öz sahibi var.*
*Siz nə yazırsınız, bayaqdan bəri,*
*-Bəs hanı bu yurdun öz sahibləri?*
*Bəs hanı həqiqət, bəs hanı qanun?*
*Böyükdür bu yurdun tarixi, yaşı.*
*Bəs hanı köksünə sərhəd qoyduğun,*
*Bir vahid ölkənin iki qardaşı?*
*Görək bu hicrana, bu müsibətə,*
*Onların sözü nə, qərəzi nədir?*
*Bu xalq əzəl gündən düşüb zillətə,*
*Öz doğma yurdunda yoxsa kölədir?*
*Necə ayırdınız dırnağı ətdən*
*Ürəyi bədəndən, canı cəsəddən? [4, s.77-78]*

Bu poemada bədii tərənnüm öz yerini bədii faktın pafos və ritorika üzərindən patetik intonasiyaya vermişdir. Bununla bərabər, müəllifin əsərdə qoyduğu hər bir sualının konkret ünvanı var ki, onları görünən və görünməyən tərəflər kimi xarakterizə etməklə şairin öz zamanında nə qədər böyük cəsarət və qeyrətlə fikirlərini bəyan etdiyinin şahidi oluruq. Ümumiyyətlə, poeziya xalqı, vətəni düşündürən böyük ictimai mətləblərin, milli məramların, amal və ideallarının ilkin təzahür forması olmaqla, onların bədii təcəssümünü yaradır və milli şüuru həmin ideallara doğru səfərbər edir.

Bəxtiyar Vahabzadə sonrakı dövrlərdə də bu mövzunu davam etdirərək məşhur "Mərziyə" (1984) poemasını, lap sonralar isə, "Gülüstan" poemasının ikinci hissəsi kimi qələmə aldığı "İstiqlal" əsərini (1999) yazmaqla, iki sahildə yaşayan bir xalqın azad düşüncəsinin, ideallarının, milli mənliyinin təsdiqi uğrunda mücadiləsinin qarşısını almağın mümkün olmadığını bəyan etmişdir. Çünki şairin fikrincə, qorxu, azadlıq düşmənləri önündə geri çəkilmək əbədi mütilik, köləlik və qul psixologiyası yaradır:

*Qorxu bizə nə verər, qorxu bizdən nə alar,*
*Qorxu adlı o iblis doğar kölə balalar.*
*Kölə balalar isə mütiliyi balalar [3, s. 481].*

Şairin fikrincə, hər bir millətin varlığı, şərəfi, ləyaqəti onun azadlığı, müstəqilliyi, müstəqil dövlətçiliyi ilə, dünya xalqları arasında öz haqqını sübut etməsi ilə bağlıdır. Əgər bu yoxdursa, o xalq gec-tez məhv olub gedəcək.

*Millətin millətliyi yaşar ləyaqətində -*
*Eşqində, qeyrətində,*

*Şərəfində, adında*
*Bir də...azadlığında [3, s. 481].*

Şair bu fikri "Gülüstan" əsərinin ikinci hissəsi kimi qələmə aldığı və Güneyində gedən istiqlal hərəkatının liderlərindən biri olan M.Çöhrəqanlıya ithaf etdiyi "İstiqlal" (1999) poemasında daha sərt səsləndirmişdir.

*Torpağı yoğurur vaxt özü qanla*
*Vaxt gəldi, bircə söz min dünya açar.*
*Artıq anlamışıq ahla, amanla.*
*Nə məftil əriyər, nə sərhəd uçar [4, s.95].*

Ümumiyyətlə, Bəxtiyar Vahabzadə seçdiyi bütün mövzulara iki prizmadan yanaşır:

1. Fəlsəfi mahiyyəti önə çəkməklə hadisə və predmetin analitik - bədii təhlilini vermək, mövzunu ideya və mərama uyğun olaraq, əxlaqi-didaktik nəticəyə istiqamətləndirmək. Bu şeirlərdə hər bir obraz və detal zamanın və zaman içərisindəki insanın daxili ziddiyyətlərini sadəcə əks etdirir, onun barəsində düşünməyə vadar edir. "Vaxt, Zaman, Ölüm-Olum, Gözəllik, Təbiət və Urbanizasiya, Xeyir və Şər və s. bütün bu anlayışlar Bəxtiyar poeziyasında öz fəlsəfi-poetik həllini tapırdı. Əzəldən bu böyük şairin daxilində narahat və ağıllı bir filosof yaşayırdı" [3]. Biz bu xüsusiyyəti şairin Füzuli, onun obrazları, o cümlədən həyatı ilə bağlı şeir və poemalarında daha aydın görürük. Bu, şeirlər feil, ittiham yox, düşüncə üzərində qurulmuşdur; bədii-tarixi fakt var, amma çağırış, haray, mübarizə yoxdur:

*Bu bir qəlbin səsi deyil, milyon qəlbin bir səsidir,*
*Ömrü-günü əsarətdə keçən xalqın naləsidir.*
*"Şəbi-hicran", qoca Şərqin öz varlığı öz adıdır.*
*Məhkum olan millətlərin "yandım" deyən fəryadıdır [4, s.73].*

2. İkinci qisim əsərlərdə isə hər bir hadisə və obraz iki mərhələdə – təsvir və bundan doğan nəticəyə uyğun olaraq çağırışla müşayiət olunur. Tarixi faktın gerçəkləşdiyi zaman yox, mövcud zaman əsas götürülür və nəticə ona uyğun verilir. Bu cür şeirlərdə Sabir ruhu, Mirzə Ələkbər Sabirin döyüşkən poeziyasının təsirini də sezirik. V.Yusifli bununla bağlı yazır: "Mənim fikrimcə, Bəxtiyar Vahabzadə Mirzə Ələkbər Sabirdən sonra dövranla, dünya ilə ən amansız müxalifətdə olan şairlərimizdən biridir. Dahi Sabirin "Hophopnamə"si göz yaşları içində qəhqəhə idi, üz tutduğu xalqa "özünü dərk et" harayını, fəryadını çatdırırdı. Bəxtiyarın "Bəxtiyarnamə"si isə nə göz yaşlarıdı, nə də qəhqəhə. Müdrik bir şair-filosofun bəzən çılğın, bəzən qəzəb, hiddət, üsyan dolu çağırışlarıdır. "Ey xalqım, özünü dərk et və düşün... əsrlər boyu səni izləyən və qəhr edən bu bəlalardan özün çıxış yolu ara, tarixdən ibrət al!" [5]. Amma bütün hallarda onun yazıb yaratdıqları sonda istiqlal və millilik kontekstində bir araya gələrək, ədəbiyyatımızın milliləşmə mərhələsinin ən yaxşı nümunələri kimi sonrakı nəsil sənətkarlarımızın yaradıcılığında və dünyabaxışında mühüm rol oynamışdır.

Bəxtiyar Vahabzadənin istiqlal poeziyasının kulminasiya nöqtəsini, məncə, onun 20 Yanvara həsr etdiyi şeirlər təşkil edir. O, "Şəhidlər" adlı şeiri ilə Azərbaycan xalqının milli mübarizəsinin böyük tarixi yolunu ümumiləşdirərək, həssas şair qəlbinin ağrıları bahasına olsa da, "qan olmadan qələbənin mümkünsüzlüyü" qənaətinə gəlmişdi.

*Tarixi yaşadıb diləyimizdə,*
*Bir yumruğa döndük o gecə biz də.*
*Yıxıb köləliyi ürəyimizdə*
*Cəsarət mülkünü tikdi Şəhidlər...*

20 Yanvar faciə və qəhrəmanlıq səhifəsi olmaqla bərabər, istiqlal mübarizəsindən müstəqilliyə qədəm qoyan bir ölkənin şairinin qarşısında həm də yeni və daha məsuliyyətli poetik funksiya qoymuşdu: Şəhidlərin qanı bahasına başa gəlmiş müstəqilliyi, müstəqil dövləti qorumaq, milli qüvvələri səfərbər etmək günün aktual problemi idi. Bəxtiyar Vahabzadə bu məsələdə də milli istiqlal mübarizəsindəki kimi cəsarət nümunəsi göstərdi: daxili ziddiyyətlər, xalqın qanı bahasına qazanılmış müstəqilliyi zəhərə döndərən sosial bəlalar, torpaq itkiləri onun sonrakı dövr yaradıcılığında satiranı, sarkazmı gücləndirdi, ittihamlar ünvanını dəyişib imperiya hərislərindən ölkə daxilinə yönəldi:

*Millət unudulmuş, xalq unudulmuş*
*Bir loxma çörəkçin övladlarımız*
*Özgə qapılarda didərgin olmuş*
*Gəl, bu imtahandan sən qurtar bizi*
*Ya rəbbim, ağıl ver, kamal ver bizə.*
*Çoxdan unutmuşuq düşmənimizi,*
*Düşmən kəsilmişik bir-birimizə.*

**Nəticə.** Fikrimizcə, Bəxtiyar Vahabzadənin müstəqillik dövrü yaradıcılığı ayrıca təhlil və araşdırılmalıdır. Onun istiqlal şeirlərindən fərqli olaraq müstəqillik dövründə yazdığı şeirlərdə bəzən biz nihilizm, çarəsizlik elementləri görsək də, onlar hədəf və inadından dönməyən bir şairin istiqlal poeziyasının yeni mərhələdə də mübarizə ruhunu davam etdirdiyini göstərir.

**ƏDƏBİYYAT**


1. http://science.gov.az/news/open/7146.
2. Yusifli V. O, xalqın divanəsiydi. "Azərbaycan" qəzeti, 13 fevral 2015.
3. Vahabzadə B. Əsərləri, 10 cilddə, I c. Bakı, "Elm", 2008.
4. Vahabzadə B. Seçilmiş əsərləri, iki cilddə, II cild (Poemalar). Bakı, "Öndər nəşriyyat", 2004.
5. Yusifli V. Poeziyamızın Bəxtiyarı. Bakı, "Ədəbiyyat qəzeti", № 33 (3732), 2010, 20 avqust.